BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2010*

# QEYRİ-RASİONAL ƏMƏLİYYATLAR VƏ YARADICILIQ PROBLEMİ

**P.Ə.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***social-sciences@bsu.az***

*Məqalədə qeyri-rasional və yaradıcı fenomenlərdən, onların xüsusiyyətlərindən bəhs olunur. Burada insanın fəal həyat təcrübəsində hadisələrə qeyri-şüuri münasibəti də verilir.*

*Məqalədə elmi yaradıcılığın insan həyatı üçün əhəmiyyəti, onun tipləri, strukturu və qnoseoloji yükü açıqlanır.*

Son illər elmi-fəlsəfi ədəbiyyatda tez-tez təsadüf edilən aktual məsələlərdən biri də idrakda rasional və qeyri-rasional əməliyyatın qarşılıqlı əlaqəsi məsələsidir. Bəşəriyyətin elmi idrak üzrə apardığı çoxəsrlik müşahidələr və tədqiqatlar sübut edir ki, idrak prosesində rasional əməliyyatlarla yanaşı, qeyri-rasional əməliyyatlar da iştirak edir. Rasionallıq insan idrakına xas olan və onun təfəkkürünün atributuna çevrilən ən yüksək intellektual məziyyətlərdən biridir. İnsanın idrakı fəaliyyətinin atributu sayılan qeyri-rasional əməliyyatlar da rasional əməliyyatlar kimi obyektiv proseslər olub, insanların şüur və iradəsindən asılı olmayaraq beynin müxtəlif sahələrinə təsir göstərən biososial qanunauyğunluqlar əsasında baş verirlər. Lakin rasional əməliyyatlardan fərqli olaraq qeyri-rasional əməliyyatlar insanlar üçün məqsədəuyğun forma almadıqlarından bütünlüklə onları təmin etmirlər. Bununla belə hər cür rasional formalar kimi qeyri-rasional əməliyyatlar da insan şüurundan və onun idrakı fəaliyyətindən kənarda qalmayıb, bu təbii fəaliyyətin atributu, zəruri məqamı, qanunauyğun momenti və təbii məhsulu kimi mövcuddur.

İdrakda təsir göstərən qeyri-rasional əməliyyatların mexanizmini, spesifikasını və onların idrakı rolunu yaradıcılıq anlayışı timsalında aydınlaşdıraq.

Yaradıcılıq fenomeninin fəlsəfi mahiyyətini açıqlamazdan əvvəl qeyd edək ki, bir sıra hallarda yaradıcılıq prosesinin təsviri göstərir ki, sadəlövh insanlar yaradıcılıq anlayışının mahiyyətinə toxunmadan elmi kəşflərin baş tutmasını bəxtin gətirməsi kimi başa düşürlər. Halbuki tale həmişə yalnız əzmkar və əməksevər insanların üzünə gülür və «təsadüfü kəşflər», heç də bəzilərinin düşündüyü kimi təsadüfi olmur. İstər incəsənətdə, istərsə də elmdə üç komponent - əməksevərlik, istedad və bəxtin gətirməsi təsir göstərir. Elmi uğurun bu komponentlərini biz fəlsəfi leksikonda aşağıdakı sözlərlə ifadə edə bilərik: professionallıq, qabiliyyət və müvəffəqiyyət. Elmdə yeniliyin aşkara çıxarılması, o cümlədən Mendeleyevin, Darvinin, Mendelin tədqiqatlarının naməlum sahələrini necə aşkara çıxarmaq olar? Bu məsələnin araşdırılması artıq yaradıcılıq prosesinin özünün mahiyyətinin və baş vermə mexanizminin açıqlanmasi ilə bağlıdır.

Məlumdur ki, insanlar həyatda vaxtaşırı dəyişə bilən ekstremal situasiyalarla rastlaşdıqda ümumi davranış normaları ilə yanaşı, bu normalarla uzlaşmayan bir sıra qeyri-strandart qərarlar da qəbul etməli olurlar. Təfəkkürdə baş verən bu proses

yaradıcılıq adlanır (3, 59-61). Qədim yunan filosofu Platon yaradıcılığı ağılsızlığın xüsusi növü, insana ilahi tərəfindən verilmiş fövqəltəbii qabiliyyət adlandırırdı. Orta əsrlərin xristian ənənələri isə yaradıcılığı ilahi varlığın insan təbiətində ən yüksək təzahürü hesab edirdi. Yaradıcılığı dahilik əlaməti, o cümlədən elmi fəaliyyəti – istedad, həqiqi yaradıcılığı isə insanın insanın yüksək məziyyəti yalnız böyük şəxsiyyətlərə – peyğəmbərlərə, filosoflara, yazıçılara nəsib olmuş dahilik əlaməti adlandırırdılar.

Psixoanaliz cərəyanının nümayəndələri: Freyd, Adler. Kreçmer, Yunq, Fromm və başqaları yaradıcılıq aktlarını insan psixikasının qeyri-şüuri, qeyri-rasional sahəsinə aid edərək onun dərkedilməzliyi, rasional idraka uyuşmazlığı ideyasını təbliğ edirdilər.

Tədqiqi və təhlili mühüm idrakı əhəmiyyət kəsb edən yaradıcılıq prosesinin daxili mexanizmini bu günədək ətraflı öyrənmək mümkün olmamışdır. İnsanın biososial təkamülünün məhsulu kimi meydana çıxan və onun idrakı və praktiki fəaliyyətində mühüm rol oynayan yaradıcılıq aktının elementar formalarına heyvanların da hərəkət və davranışlarında rast gəlmək mümkündür. Məsələn, heyvanlar üzərində aparılmış təcrübələr göstərir ki, sıçanlar göstərdikləri bir neçə təşəbbüsdən sonra ən dolaşıq labirintlərdən belə çıxa bilirlər. Maraqlı faktlardan biri də bundadır ki, lal-karların dilini öyrənmiş şimpanze yüzlərlə sözü və qramatik formaları mənimsəyərək rastlaşdığı qeyri-standart şəraitlə bağlı insanlara yeni məzmunlu informasiyalar verməklə diqqətçəkən yaradıcılıq nümayiş etdirmişdir. Göstərilən faktlarla bağlı olaraq bir sıra müəlliflər «yaradıcılıq» anlayışının məzmun sərhədlərini, həcmini həddən artıq genişləndirərək onun aşağı formalarının yalnız canlı aləmdə deyil, eyni zamanda cansız təbiətdə də axtarırlar. Belə tədqiqatçılar həm insanın, həm cəmiyyətin üzvü aləmin, həm də cansız təbiətin yaradıcılığından bəhs edirlər. Məsələn, müasir rus psixoloqlarından olan Y.A.Ponomaryovun baxışları buna misal ola bilər. O yazır ki, «Yaradıcılıq materiyanın inkişafının və yeni formalarının təşəkkülünün zəruri şərtidir, həm də yeni formalar yarandıqca yaradıcılıq formaları da dəyişir. Yaradıcılıq məhsuldar inkişafın mexanizmini təşkil edir, yaradıcılığı həmişə hərəkətin bəsitdən aliyə doğru istiqamətləndirməyi yerdə axtarmaq lazımdır».

Göründüyü kimi, bu halda müəllif materiyanın daxili ziddiyətlərindən irəli gələn öz-özünə inkişafı, özünütəşkiletməni ümumiyyətlə, yaradıcılıq prosesi kimi qələmə verir.

Yaradıcılıq, o cümlədən elmi yaradıcılıq fövqəltəbii, yerdən xaric hadisə olmayıb, insan və cəmiyyət həyatının mühüm momenti, insan xarakteristikasının mahiyyət elementidir. Din xadimləri və ilahiyyətçilər yaradıcılığın ilahi mənşəli olduğunu iddia edirlər, onlar sübut etməyə çalışırlar ki, yaradıcılıq qüvvəsinə yalnız ilahi varlıq malikdir və insani əhatə edən hər şey ancaq onun fəaliyyətinin məhsuludur. Bununla onlar insanın yaradıcı fəaliyyəti olmasını inkar edirlər. Belə əsərlərdən iki sitat gətirək:

İ.Tissen yaradıcılıq sahəsindəki axtarışlarında yazırdı ki, «İlahi –Yaradıcıdır. Hər bir şey öz mövcudluğunu Ondan alır. İlahi- Öncəgörəndir. O, yaratdığı hər bir şeyi onların sonuna doğru istiqamətləndirir. O, hər şeyə sərbəst mövcudluq bəxş etmişdir».

Digər bir xristian ilahiyyatçısı Dyubart yazırdı ki, «İlahi yaradıcı olub, öz yaratdıqlarından çox-çox yüksəkdə durur. O, Göyün və Yerin və bütün digər şeylərin cisimlərin, psixi halların və fikirlərin yaradıcısıdır».

İlahiyyatçinin nəticəsi belədir: «İlahi ona görə yaratmamışdır ki, özünü təkmilləşdirsin və ya özünün xoşbəxtliyini artırsın. Bu, mümkün deyil və buna lüzum yoxdur. İlahi mükəmməldir və bütöv səadətə malikdir. İlahi yeganə həqiqi varlıqdır. Ondan kənarda mövcudluq üçün yer yoxdur, mövcudluqla yalnız o, ünsiyyətə girə bilər. Yaradıcılıq onun üçün hifz olunub saxlanan fəaliyyətdir. Yaratdıqları bütünlüklə onun özünə məxsusdur».

Göründüyü kimi, yaradıcılıq haqqında dini baxışlar sübuta ehtiyacı olmayan xəyali aksiomadan başqa bir şey deyil. Lakin yaradıcılıq haqqında elmi təsəvvürlər də vardır.

İnsanın yaradıcılığı onun idraki qabiliyyəti əsasında baş verir, yaradıcılığın mahiyyəti də məhz idraki fəaliyyətdə açıqlanır. Təsadüfi deyil ki, insanın yaradıcı komponentləri onun həm hissi təsəvvürlərində, həm anlayışlı obrazlarında, həm canlı şeirində, həm də empirik və nəzəri biliklərində təsirini göstərir. İnsanın şüurunda gələcəyə istiqamətlənən ideal tipli anlayışlar da funksiyalaşır. Burada abstrakt təfəkkürün məhsulu olan və gələcəyin obrazını ehtiva edən hissi təsəvvürlər də mövcuddur. Onlarda inikas tipli təsəvvürlər cəmləşir, başqa sözlə, hissi inikas praktika ilə, gələcəklə, gələcəyi özündə təcəssüm etdirən yeni yaradan təsəvvürlərlə müəyyən olunur.

Belə bir nöqteyi-nəzərə tam bəraət qazandırmaq lazımdır ki, idrakda bir-birindən asılı olmayan iki paralel, biri inikasa, digəri isə yaradıcılığa xidmət edən mexanizm yoxdur, idrakda belə mexanizmləri seçib ayırmaq mümkün deyil, zira yaradıcılıq bütün idraki prosesə nüfuz edir. Digər tərəfdən idrakın heç bir forması da «xalis inikas», obyektin üzünün köçürülməsi deyil.

Yaradıcılığın insanın obyektiv qanunlar əsasında öz məqsəd və tələbatlarına uyğun olaraq gerçəkliyi təbiət və cəmiyyəti dəyişdirmə fəaliyyəti kimi anlamı elmi dairələrdə geniş yayılmışdır. Bəzən belə fikirlərə də rast gəlinir ki, güya yaradıcılıq elə bir yeninin yaradılmasıdır ki, o ümumi əhəmiyyətə malik olmaqla bəşəriyyətin mütərəqqi inkişafına xidmət edir. Lakin belə nöqteyi-nəzər tənqid olunur. Tarixən məlumdur ki, bir çox hallarda insanların yaradıcı fikrinin görkəmli nailiyyətləri belə ictimai əhəmiyyətli olmamışdır.

Fəlsəfi ədəbiyyatda yaradıcılıq haqqında belə bir tərifə rast gəlirik: yaradıcılıq-insan fəaliyyətinin keyfiyyətcə yeni maddi və mənəvi dəyərlər yarada bilməsi prosesidir.

Yaradıcılıq bir sıra elmlərdə öyrənilir. O cümlədən fəlsəfəni, psixologiyanı, pedaqogikanı, elmşünaslığı, kibernetikanı, informatikanı və s. misal göstərmək olar. Son dövrlərdə daha bir yeni elm - məşhur yunan alimi Arximedin «Evrika» («Mən tapdım») sözündən alınmış evristika elmi də meydana gəlmişdir. Evristikanın əhatə etdiyi problemlərin dairəsi çox genişdir: yaradıcılıq fəaliyyətinin spesifik cəhətləri, yaradıcılıq prosesinin strukturu və mərhələləri, yaradıcılıq fəaliyyətinin tipləri elmi və bədii yaradıcılığın nisbəti, yaradıcılıqda fəaliyyətin rolu, istedad və dahilik, yaradıcılıq prosesini stimullaşdıran və ləngidən amillər, yaradıcılıq fəaliyyətində əsaslandırma və şəxsi amillər, insanın yaradıcılıq qabiliyyətinin təzahürünə və yaradıcılıq prosesinə sosial şəraitin təsiri, yaşın yaradıcılıqda rolu, elmdə və yaradıcılıqda təfəkkür üslubu, dialoq və diskussiyaların elmi yaradıcılığın vasitə və formaları kimi seçilməsi və s.

Yaradıcılıq anlayışı insanın gerçəkliyə münasibətinin mühüm bir tərəfini, inikasın sosial formasının spesifikasını ifadə edir.

Yaradıcılıq öz mahiyyətinə görə sosial hadisə olub, cəmiyyətdən kənarda deyil. İnsan öz fəaliyyətinin bütün sahələrində – iqtisadi, siyasi, ideoloji və sosial sferasında yüksək yaradıcılıq qabiliyyəiti nümayiş etdirməyə qabildir. Yaradıcılıq insan varlığının həyati zərurəti, onun keyfiyyət müəyyənliyinin mühüm elementlərindən biridir. Yaradıcılıq subyektin maddi mənəvi fəallığı onun əllərinin və əqlinin yaradıcılığıdır.

Yaradıcılıq prosesi öz mahiyyəti etibarilə subyektiv olub, konkret fərdə məxsusdur. Hər bir yaradıcılıq prosesində insan konkret tarixi şəxsiyyət olmaq etibarilə maddi və mənəvilik, rasional və emosionalın, məntiqi və psixinin, şüuri və qeyri-şüurinun və bir sıra digər xarakteristikaların sosial sistemi kimi çıxış edir, yalnız insan maddinin ideala çevrilməsinin yaradıcı prosesini həyata keçirməyə qadirdir. Qeyd edək ki, yaradıcılığın təməli sadəcə insanın biofiziki və neyrofizioloji strukturunda deyil, onun «funksional arxitekturasında» qoyulmuşdur. Bu sonuncu işə beynin müxtəlif sahələrinin fəaliyyəti ilə həyata keçirilən mütəşəkkil və məntiqi, abstraksiyaların yaradılmasının ardıcıl əməliyyatlar sistemi olub, beyində hissi obrazlarını işarə informasiyalarının işlənib hazırlanmasını və yaddaşda qorunub saxlanmasını, yaddaşın müxtəlif element və bloklarının qarşılıqlı əlaqəsinin bərqərar olmasını təmin edir (6, 144). Özünün bioloji və neyrofizioloji strukturuna görə insan beyni ali heyvanların beynindən mürəkkəb və çoxaspektli olduğu kimi, onun funksional arxitekturası da heyvanınkından xeyli fərqlidir: Sözsüz ki, bu da insan beynində yeni informasiyaların işlənib hazırlanması və onların yaddaşda möhkəmləndirilməsi üçün əlavə stimmullar yaradır.

Yaradıcılıq insanın mövcudluğunu və təmin edən inkişafını ona rəngarəng və dəyişkən dünyamıza uyğunlaşmağa imkan verən mürəkkəb fizioloji mexanizmdir. Bu mexanizmin formalaşmasında isə obyektiv aləmlə yanaşı, insanın mənəvi dünyası, hissi və həyəcanları, psixi durumu, əhval-ruhiyyəsi, emosiyaları, fantaziyası, iradə aktları və s. mənəvi fenomenləri də mühüm rol oynayır.

Yaradıcılıq aktı insanın nəzəri və praktiki qaydaları, normaları, standartları, etalonları ehtiva edir. Buna görə də rasionallıq və yaradıcılıq bir-birinə əks olmayıb, biri digərini qanunauyğunluqla tamamlayan obyektiv proseslərdir. Yaradıcılıq nə irrasional, nə rasionala zidd olan, nə də orta əsr ilahiyyatının israr etdiyi kimi şeytan əməlidir.

Yaradıcılıq qeyri-şüuri, sövqi-təbii cərəyan edən, ənənəvi xarakter daşıyan, qayda və standartlara tabe olmayan elə fəaliyyətdir ki, o rasional fəaliyyətlə birləşərək idrakın yeni çalarlarının və növlərinin yaranmasına səbəb olur. Məsələn, Leonardo da-Vinçinin, Rafaelin, Mikelanjelonun bədii yaradıcılığı, N.Tusinin, Q.Qarayevin, N.Konpernikin, N.Lobaçevskinin, A.Eynşteynin, Z.Freydin, Lütfi Zadənin və başqalarının elmi yaradıcılığı hazırda müasir mədəniyyətin və elmin ayrılmaz hissəsinə çevrilmişdir. Halbuki yaradıcılıqlarının başlanğıcında bu alimlər böyük çətinliklərə, müqavimətlərə rast gəlmişlər.

Zəmanəmizin ən böyük alimlərindən biri milli qürurumuz və iftixarımız olan həmyerlimiz Lütfi Zadənin (ABŞ) «qeyri-səlis məntiq» nəzəriyyəsi ABŞ-da yaradılmasına baxmayaraq uzun müddət, hətta ən mütərəqqi amerikan alimləri tərəfindən belə elmi nəzəriyyə kimi qəbul edilməmişdir, yalnız sonralar yapon, rus və Avropa alimləri tərəfindən qəbul təsdiq edildikdən sonra Amerikanın elmi mühitində müasir dövrün ən böyük nailiyyətlərindən biri kimi özünə yer almışdır. Hazırda dunyanın qabaqcıl ölkələrində, o cümlədən respublikamızda Lütfi Zadə irsinin öyrənilməsinə böyük maraq göstərilir.

Deməli, insanın yaradıcılıq məhsulu olan kəşflərin, yeni ideya və nəzəriyyələrin irəliləyiş yolları heç də hamar olmur, yenilik, böyük kəşflər özünə həmişə çətinliklərlə yol açır.

Hər bir insan müəyyən yaradıcılıq qabiliyyətinə malikdir. Uşaq ətraf aləmi dərk etməklə, dil öyrənməklə, mədəniyyətə yiyələnməklə həqiqi yaradıcılıq nümunəsi nümayiş etdirir. Lakin yaşlı adamlara görə uşaqlar ancaq başqaları tərəfindən kəşf olunmuş və hamıya məlum olan biliklərə yiyələnirlər. Buna görə fərd üçün yeni olan hər bir şey cəmiyyət üçün heç də həmişə yeni olmur. Bu baxımdan mədəniyyətdə, siyasətdə, elmdə, istehsalatda nümayiş etdirilən yaradıcılıq əsasən əldə edilmiş nəticələrin prinsipial yeniliyi və tarixi əhəmiyyəti ilə ölçülür.

Yaradıcılıq prosesində subyekt öz-özünə dayaq olur. İnsanın öz-özünə dayaq olması yaradıcılığın əsasını təşkil edir. Yaradıcılıq yalnız obyektiv gerçəkliyin subyektiv inikası olaraq qalmır, eyni zamanda subyektin daxili halını və çoxcəhətli fəallığını da əks etdirir. Başqa sözlə, yaradıcılıq insanın öz-özünü dərk etməsidir. Hər bir özünüdərk isə öz növbəsində şüurun inkişafı olub, onun zənginləşməsidir. Yaradıcılıq, hətta elmi yaradıcılıq belə xalis məntiqi proses deyil. Şeylərin dərki, onların mahiyyətinin açıqlanması emosional prosesdi. Bu proses insanın nəinki böyük gərginlik tələb edən əqli-məntiqi qabiliyyəti ilə, həm də həyəcan və ehtirasları ilə, ilham və yaradıcılıq sevincləri və əziyyətləri ilə bağlıdır. Yaradıcılıq prosesində insanın məntiqi təfəkkürü ilə yanaşı, onun ruh yüksəkliyi, təxəyyülü də iştirak edir. V.İ.Vernadski yaradıcılıqda emosiyaların rolunu yüksək qiymətləndirərək yazmışdı: «deyirlər ki, güya yalnız ağılla hər şeyi dərk etmək mümkündür. İnanmayın!.... Bir əlaqə-ağıl, digər yaradıcılıq prosesində kəsişirlər».

Yaradıcılıqla bağlı belə bir cəhəti də qeyd edək ki, yaradıcılıq insanın güclü psixi gərginliyi ilə bağlı olsa da, onun pozitiv-nəticələrinin subyektdə yaratdığı razılıq hissi sonrakı yaradıcılıq aktları üçün də əlavə stimullar yaradır.

İnsanın yaradıcılıq prosesi onun məhsullarının, yaradıcılığının durmadan təkmilləşməsini tələb edir, yaradıcılıq prosesi öz mahiyyətinə görə mövcud olanları subyektivcəsinə dəyişdirir. Əbəs yerə demirlər ki, qələmin ucu – beynin alətidir. Yaradıcılıq prosesində subyekt öz-özünü ifadə edir və özünü yenidən hasil edir, gerçəkliyin məqsədyönlü dəyişdirilməsi zamanı insan gerçəkliyə nəinki yeni şeylər əlavə edir, o, həm də özünün yaratdığı «əsərlərdə» yaşamaqda davam edir, yaratdığı məhsul onun ikinci təbiətinə çevrilərək özünə nisbi müstəqil həyat statusu qazanır. Əlbəttə, yaradıcılıq prosesində, insan mövcudluğu ixtiyari şəkildə deyil, yalnız ciddi tələblər, prinsiplər, normalar, qaydalar əsasında baş verir.

İnsan yalnız möhtəşəm vasitələrdən və qaydalardan istifadə etməklə özünün yaradıcılıq imkanlarını nümayiş etdirir. Məsələn, subyekt yaradıcılıq prosesində tədqiqat metodlarından olan analogiyadan geniş istifadə edir. Buna görə də, yaradıcılıq prosesində həmişə bənzətmə elementləri iştirak edir. Yaradıcılığın bu xüsusiyyətini qədim yunan filosofları da başa düşmüşdülər.

Bununla belə, yaradıcılıq prosesində analogiyanın rolunu nə şişirtmək, nə də mütləqləşdirmək olmaz. Yaradıcılıq prosesində mütləqləşdirilməsi son nəticədə yaradıcılığın özünün inkarına gətirib çıxara bilər. Gerçəkliyi dəyişdirməyi qarşısına məqsəd qoyan hər bir insan analogiyadan bir vasitə kimi istifadə etsə də, o, bu prosesdə keyfiyyətcə yeni və orijinal bir şey yaradır. Əlbəttə yeniliyin yaranması yaradıcılıq prosesinin özəlliyi və səciyyəvi cəhətidir.

Yaradıcılıq subyektin «kəşf», «ixtira» və «axtarış» anlayışları ilə təsvir olunan

fəaliyyətidir. Yaradıcılıq prosesində subyekt hazırda mövcud olmayan elə bir şey axtarır ki, onu dəyişdirmək yolu ilə öz fikrini reallaşdırıb həyata keçirir. Bu prosesdə subyekt ətraf mühiti məqsədyönlü dəyişdirməyə imkan verən üsulları, metodları və formaları da axtarır. Təsadüfi deməmişlər ki, «axtarmağı bacarmayan adam tapmağı da bacarmaz».

Yaradıcılıq prosesinin tipik formalarından biri də kəşf və ixtiralardır. Elmi yaradıcılıqda qazanılan hər bir uğur yeniliyin kəşfi ilə nəticələnə bilər. Kəşf anlayışına münasibətdə yanlış mövqedə dayanan Buarel yazır: «Kəşf – həyatın əsas xarakteristikasından biridir. Canlı varlıqlar təkamülləşmə prosesində həyat şəraitinə uyğunlaşmaq üçün naməlum formalar kəşf edirlər» (3, 64).

J.J.Russo, «Emil və ya tərbiyə haqqında» əsərində yazır ki, «verilmiş həqiqətin dərki o qədər də vacib deyil, vacib olan həqiqəti necə açmağın yolunu göstərməkdir». Bununla da Russo kəşfin özünəməxsusluğunu və izahının ixtiyari olduğunu qeyd edir. Halbuki insana məxsus olan yaradıcılıq onun mütləq azadlığından heç də asılı deyil, yaradıcılıq təsadüfi səciyyə daşımayıb, sosial determinə olunmuş hadisədir. Yaradıcılığın bu aspekti aşağıdakı cəhətləri şərtləndirir: 1. Yaradıcılıq cəimiyyətin sosial həyatının ayrılmaz elementidir. 2. Yaradıcılıq və onun hər bir elementi sosial tamın təbiətinin daşıyıcısıdır. 3. Yaradıcılığın xarakteri və nəticələri onun həyata keçirildiyi sosial şəraitdən asılıdır.

Yaradıcılıq anlayışı iki mənada- sözün geniş və dar imənasında başa düşülür. Sözün geniş mənasında yaradıcılıq insan təfəkkürünə və praktikasına immanent xas olan elə fəaliyyətdir ki, onun gedişində, əvvəla, obyektiv gerçəklikdə mövcud olmayan yeni əşyalar və hadisələr, o cümlədən gerçəklik haqqında yeni biliklər, maddi əşyavi ixtiralar (alətlər, aparatlar, cihazlar, maşınlar və s.) formalaşır; ikincisi, insanın yaratdığı maddi və mənəvi törəmələr inkişaf etdirilir və təkmlləşdirilir; üçüncüsü, dünyanın dərki və praktiki dəyişdirilməsi məqsədi ilə yeni metodlar, formalar və vasitələr hazırlanır.

Sözün nisbətən dar mənasında isə yaradıcılıq insanın fəaliyyəti və təfəkkürü qarşısına qoyulan yüksək tələbləri əks etdirir. Elmi kəşflər və fundamental ixtiralar məhz yaradıcılığın sözün dar mənasında başa düşülməsi ilə bağlıdır.

## ƏDƏBİYYAT


1. Бройл Л.Д. По тропам науки. М.: Мысль, 1962, 424 с.
2. Быков Г.В. Август Кекуле. Очерк жизни и деятельности. М.: Мысль, 1964, 176 с.
3. Гиргинов Г. Наука и творчество. М.: Прогресс, 1979, 365 с.
4. İsmayılov F. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 142 s.
5. Интуиция, логика, творчество. М.: Мысль, 1978, с. 312 с.
6. Лук А.Н. Мышление и творчество. М.: Политиздат, 1976, 144 с.
7. Məmmədov Əziz. Dialekt, idrak və ümumelmi tədqiqat metodları. Bakı: Azərnəşr, 1997, 312 s.
8. Пономарев Е.Я. Психология и творчество. М.: Наука, 1976, 284 с.
9. Həsənova P. Mədəniyyət sistemində elm. BDU, 2001, 52 s.
10. Məmmədov Ə.B., Həsənova P.Ə. Yaradıcılıq və intuisiya haqqında fəlsəfi düşüncələr. Bakı, 2009, 70 s.
11. Məmmədov Ə.B., İsmayılov V.İ., Məmmədov F.Ə. Rasionallıq və qeyri-rasionallıq. Bakı, Elm, 2010, 878 s.
12. Məmmədov Ə.B., Bəşirov R.İ. Müasir təbiətşünaslıqda konseptual yanaşma. Bakı, Elm, 2001, 754 s.

## ИРРАЦИОНАЛЬНЫЕ ПРОЦЕССЫ И ПРОБЛЕМА ТВОРЧЕСТВА

**П.А.ГАСАНОВА**

**РЕЗЮМЕ**

В данной статье анализируются иррациональные и творческие феномены и их особенности, бессознательное отношение человека к совокупности своей деятельности в обществе, значение научного творчества для жизни человека, его типы, структуры и гносеологические нагрузки.

## NON-RATIONAL PROCESSES AND THE PROBLEM OF CREATIVITY

**P.A.HASANOVA**

**SUMMARY**

Non-rational and creative phenomena, their characteristics are analysed in the article. Non-rationaI relation to events in men’s active experience of life is studied as well.

The significance of scientific creativity in man’s life, its types, structure and gnosio-logical load are elucidated in the article.